BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№4 Sosial-siyasi elmlər seriyası 2012

UOT 101.1; :316

# ƏXLAQİ ŞÜURUN MAHİYYƏTİ VƏ STRUKTURU

**A.M.MƏMMƏDOVA**
***Bakı Dövlət Universiteti***
***aygun.memmedova.1976@mail.ru***

*Məqalədə əxlaqın mahiyyətindən söhbət açılır, əxlaqi prinsiplərin və normaların əsas cəhətləri ifadə olunur, əxlaqın tarixi tipləri təhlil olunur, əxlaqi şüurun əhəmiyyəti qeyd olunur. Eyni zamanda burada əxlaqi şüurun struktur elementi kimi əxlaqı qiymətləndirmə göstərilir və əxlaqi şüurun baza elementləri olan qiymətləndirmə və dəyərləndirmə meylləri təhlil edilir.*

**Açar sözlər:** əxlaqi şüur, dəyər, mahiyyət, motiv, qarşılıqlı əlaqələr, ünsiyyət

Bütün tarixi dövrlərdə əxlaqi şüurun mahiyyəti, onun inkişaf meylləri istər gündəlik həyatda, istərsə də elmi-nəzəri səviyyədə müzakirə olunan mühüm məsələlərdən biridir. Müasir tədqiqatçıların çoxu əxlaqda iki, nisbətən müstəqil sahə olduğunu söyləyir: əxlaqi şüur və əxlaqi fəaliyyət (praktika və təcrübə). Bəziləri əxlaqda üçüncü elementi də ayırır ki, bu da əxlaqi münasibətlərdir. Lakin əxlaqi münasibətlər əxlaqi fəaliyyətlə (praktika ilə) əlaqədar olduğu üçün əksər hallarda hər iki element vəhdətdə nəzərdən keçirilir.

Əvvəla, qeyd etmək lazımdır ki, mənəviyyat və ya əxlaq (latınca mores – mənəviyyat deməkdir) ayrı-ayrı fərdlərin, sosial qrupların, bütövlükdə isə cəmiyyətin baxışları, təsəvvürləri və davranış normaları və qiymətləndirmənin əks olunduğu ictimai şüur formasıdır. Məlum olduğu kimi, əxlaq cəmiyyətdə insanların davranış və hərəkətlərinin tənzim edilməsi üsulu olmaq etibarilə dövlətin gücünə arxalanan hüquqdan fərqli olaraq bilavasitə əxlaq normalarına riayət etməyə məcbur edən heç bir xüsusi təsisata arxalanmır. Əxlaqın arxasında inandırma, nümunə, ictimai rəy, ənənə gücü, xeyir və şər kateqoriyaları ilə ifadə olunan mənəvi nüfuz durur.

Əxlaq normaları insanlar arasında dövlət orqanları tərəfindən tənzim edilməyən münasibətləri (dostluq, yoldaşlıq, məhəbbət və s.) əhatə edir. Yuxarıda qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, əxlaq cəmiyyətin inkişafının hər bir formasiya və sivilizasiya pillələri üçün zəruri olan tənzimedici

sistemdən ibarətdir.

Qeyd edək ki, əxlaqi şüur ictimai şüurun spesifik forması olub, ictimai münasibətləri əks etdirən anlayış və təsəvvürlərin məcmusundan ibarətdir. Anlayışlar sistemi hər hansı bir təlimin – siyasi, dini, estetik və s. özünəməxsus «dilidir» və bunlarsız əsas ideyaları ifadə etmək mümkün deyil. Əxlaqi şüurun anlayışları cəmiyyətin və şəxsiyyətin mənəvi həyatını özünəməxsus şəkildə əks etdirir. Bu anlayışlardan hər hansı bir hərəkətin qiymətləndirilməsi zamanı da istifadə edilir. Əxlaqi şüurun əsas anlayışlarına xeyir və şər, borc və vicdan, şərəf və ləyaqət, əxlaqi hisslər, əxlaq normaları, əxlaqi prinsiplər, əxlaqi ideal, əxlaqi qiymətləndirmə və s. aiddir. Bunların arasında isə vicdan anlayışı etikanın ilk anlayışı, yaxşılıq anlayışı onun əsas anlayışıdır (1, 301). Xeyir şərsiz mümkün deyil, ancaq insan onları seçir. Xeyirlə şər arasında ziddiyyət və onların seçilmək imkanı insanın təbiətində, onun məzmunundadır (2,21).

Əxlaqi şüur anlayışının təşəkkülü hələ qədim dövrlərdən başlayır. Etika ilə məşğul olan ilk filosoflar – Platon, Aristotel, Epikur və başqaları əxlaqın əsas anlayışlarının bir çoxunun, məsələn, ədalət, xoşbəxtlik, müxtəlif fəzilətlər və s. dərin təhlil etmişlər. Hətta müxtəlif anlayışların təsnifatına, içərilərindən ən əsaslarının seçilməsinə, digər anlayışların onun üzərində qurulmasına da təşəbbüs göstərmişlər. Bu istiqamətdə hərə öz variantını qurmağa çalışsa da, antik etikanın əsas anlayışı xoşbəxtlik sayılırdı. Həzz (zövq almaq) də bu qəbildən idi. Epikur hesab edirdi ki, bütün fəzilətlər öz təbiətinə görə gözəl həyatla əlaqədardır, həzz isə həyatın bizə verdiyi ilk və fitri xoşbəxtlikdir. Sonralar İmmanuil Kant əsas anlayış kimi borcu diqqət mərkəzinə qoyur və onun vasitəsilə digər anlayışları müəyyən etməyə çalışır.

Mənəvi-əxlaqi sferanın, əxlaqi şüurun inkişafı mexanizmi çoxtərəfli və mürəkkəb olduğuna görə, əxlaqa və əxlaqi şüura dair müxtəlif yanaşma tərzlərindən çıxış edərək çoxsaylı fikir və mülahizələrin irəli sürülməsi təbii haldır. Əxlaqın mahiyyətinin dəqiq və konkret müəyyən edilməsi çətindir. Fəlsəfə tarixində bununla əlaqədar olaraq bir sıra cəhdlər edilməmişdir. Ancaq bununla belə, bu elmi «əmələ gətirən», «yaradan» anlayışların əsas özülləri müəyyən edilməmişdir.

Əxlaq bugünkü vəziyyətinə birdən-birə, «hazır şəkildə» gəlib çıxmamışdır. Primitiv norma və təsəvvürlərdən yetişməyə başlayan əxlaq, bəşəriyyətin bütün tarixi boyu mövcud olmuş və olduqca mürəkkəb, uzun və hətta çətin bir yol keçmişdir. Tarixi inkişafın hər bir pilləsində maddi və mənəvi istehsal prosesi zamanı insanlar müəyyən davranış normaları, prinsipləri, qaydaları, adət və ənənələr dəblər yaratmışlar. Cəmiyyətin təşəkkül tapdığı ilk günlərdən insanlar bir-birilə münasibətlərini tənzim etmək üçün yaratdıqları bu birgə yaşayış qaydalarına riayət edir, öz hərəkətlərində nəyin pis, nəyin yaxşı olduğunu, hansı hərəkətin bəyənilib-bəyənilmədiyini xeyir və şər kateqoriyaları vasitəsilə qiymətləndirmişlər.

İctimai şüurun qədim formalarından olan əxlaq insanlar arasındakı mü-

nasibətləri əks etdirir. Əxlaq insanların bir-birinə, dövlətə və cəmiyyətə olan münasibətlərini nizama salır, ictimai həyatın bütün sahələrində insanların hərəkətlərini tənzimləyir. Məsələn, əməkdə, məişətdə, siyasətdə, elmdə, ailədə, ictimai yerlərdə və s.-də bunların hər birində o, müxtəlif rol oynayır. Bununla əlaqədar «peşə etikası», «ailə və nigah etikası» və s. terminlər yaranıb. Bütün bu sahələrdə əxlaqla yanaşı insanların hərəkətlərinin digər tənzimləyiciləri də var. Məsələn, dövlətin hüquq normaları və dekretləri, istehsalatdakı qanun-qaydalar, takt, etiket, ədəb, davranış qaydaları, idman və digər oyunların şərtləri, nəqliyyatın idarə olunma qaydaları, sanitar-gigiyena normaları və s. - bütün bunlar bəzən əxlaq normalarının spesifikasını aydınlaşdırmağa bir qədər mane olur. Əxlaqda «bu belədir» anlayışı ilə yanaşı, «belə olmalıdır» daha çox uyğun gəlir.

Bəzi təsir formaları, məsələn, milli ənənələr, məişətdəki estetik normalar, əmək vərdişlərinin tərbiyə edilməsi və s. əxlaqla yanaşı digər sahələrə də aiddir. Ayrı-ayrı insanların tərbiyəsinə təsir edən ictimai formalar – adət və ənənələr, ictimai rəy, tərbiyə və s. əxlaqla bağlı olsa da, bütünlükdə ona məxsus ola bilməz. Hər bir dövrün və cəmiyyətin özünəməxsus əxlaq qaydaları, prinsip və normaları olduğu üçün hər bir insan da əsasən yaşadığı dövrün və cəmiyyətin əxlaq qaydalarına tabe olur. Tarixi hadisə olan əxlaq bəşəriyyətin ictimai tərəqqisi gedişində dəyişir və inkişaf edir. Cəmiyyətdə əxlaq normalarının əsası dəyişildikcə, onun özü də dəyişir və cəmiyyətin inkişafından asılı olaraq tamamilə yeni formaya düşür, tədricən öz əvvəlki məzmununu itirir və nəhayət, yeni məzmun daşıyır (4,38).

Cəmiyyət siniflərə bölünən zaman əxlaq qaydaları da sinfi xarakter daşımağa başladı. Hər sinfin özünəməxsus əxlaq qaydaları yarandı. Müəyyən sinfə xidmət edən əxlaq sinfi xarakter daşıyaraq hakim sinfə xidmət etdi. Tarixdə əxlaqın aşağıdakı əsas tipləri var ki, bunlara əxlaqın konkret-tarixi tipləri də deyilir:

1) ibtidai icma əxlaqı; 2) quldarlıq əxlaqı; 3) feodal əxlaqı; 4) burjua əxlaqı və s.

Əxlaqın inkişafında bəşər mədəniyyətinin tarixi tərəqqisini əks etdirən varislik elementlərinə də rast gəlmək olar. Əxlaq bir formadan digərinə keçərkən insanlar arasındakı münasibətlərdə humanizm ünsürləri də artır. Artıq ibtidai icma dövründə qarşılıqlı yardımın sadə formaları yaranır. Adam əti yemək adəti yox olur. Tayfa ittifaqları və dövlətin yaranması ilə qan düşmənçiliyinə son qoyulur. Feodal əxlaqı təhkimli kəndlini öldürməyə yol vermir. Halbuki, quldarın öz qulunu öldürməsi onun şəxsi işi idi. Burjua əxlaqında şəxsiyyətə hörmət prinsipi təsdiqlənir. Zaman keçdikcə, cəmiyyət inkişaf etdikcə əxlaq qaydaları da dəyişir. Çox vaxt hətta zahirən əbədi görünən əxlaq qaydaları belə dəyişikliyə uğrayır, öz əvvəlki məzmununu itirir və ya onlara heç bir ehtiyac qalmır.

Əxlaqın bir sıra kateqoriyaları onu sistem kimi xarakterizə edir. Onlar-

dan biri vicdan kateqoriyasıdır. O, insanın öz davranışlarını hamı tərəfindən qəbul edilən əxlaq normaları əsasında qiymətləndirilməsindən ibarətdir. İnsanın vicdanlılığı onda utanmaq qabiliyyətinin olması ilə, yəni öz hərəkətlərinə ictimai normalar əsasında qiymət verməsi ilə əlaqədardır. Utanmaq hissindən uzaq olan adamın vicdanı da təmiz olmur. Vicdan insanlığın ölçüsüdür. Xalq arasında vicdanı ləkəli adamları yazıq və miskin adlandırırlar. Vicdan kateqoriyası şərəf anlayışı ilə bilavasitə əlaqədardır. Onun məzmunu isə öz sözünə sahib olmaq, qeyd-şərtsiz düzlük, öz borcunu və insan ruhunun xeyirxahlığını anlamaqdan ibarətdir. İnsanların öz şərəfini anlaması onun konkret şəraitdə mövcudluğundan, həmin şəraitin xüsusiyyətlərindən asılıdır.

Əxlaqi fəaliyyət hərəkət və əməllərdə, davranış normalarında təzahür edən əxlaqın ən mühüm komponentidir. Şəxsiyyətin davranışını xarakterizə edən hərəkət və ya əməllərin məcmuyu onun əsl mahiyyəti barəsində təsəvvür yaradır. Bu cəhətdən, yalnız əxlaqi prinsiplərin və normaların fəaliyyəti və həyata keçirilməsi şəxsiyyətə belə bir imkan verir ki, onun əsl əxlaqi mədəniyyəti tanınsın.

«Xeyir» anlayışının çoxmənalı təyini əxlaqın öz təbiətindən irəli gəlir. Bunun özü də insanların həyat fəaliyyətinin bütün tərəflərinə təsir edir. Məlum olduğu kimi, xeyir həmişə şərə qarşı durur. Yunan filosofu Heraklit qeyd etmişdir ki, «xeyir də, şər də – birdir» (11,74).

Xeyir və şər – xoşbəxtlik, vicdan, borc kimi digər əxlaqi anlayışlarla sıx bağlıdır. Bunlar adekvat başa düşülə bilməz. Eyni zamanda, şəxsiyyətdə xeyir və şərin düzgün başa düşülməsi formalaşmayıbsa, o, davranışın aktual prinsiplərinə də malik ola bilməz.

Xeyir və şər anlayışlarının tarixən dəyişkən xarakterinə baxmayaraq, onların mahiyyəti bundan ibarətdir ki, bütün zamanlarda və dövrlərdə «xeyir» dedikdə əxlaqi, təqdirə layiq olan şeylər, «şər» dedikdə isə bir-birinə əks, ziddiyyətli mənalar – əxlaqsızlıq, pislənilməyə layiq olanlar başa düşülmüşdür (16, 130).

Ümumi xarakter daşıyan digər qiymətləndirmə anlayışı ədalət prinsipidir. M.N.Rutkeviçin qeyd etdiyi kimi, bu anlayışda «cəmiyyətdə hakim əxlaqa nəyin uyğun gəlib-gəlmədiyi haqqında əxlaqi təsəvvürlər aşkar edilir» (13,127).

"Xoşbəxtlik" anlayışı hər bir insan üçün xüsusi əhəmiyyət kəsb edir. "Xoşbəxtlik – dəyərdir, insan həyatında xeyirxahlıq ölçüsüdür, şəxsiyyətin və bütövlükdə varlığın ideal kamilliyidir" (12, 63). Aristotelə görə isə, insanlar təlim və səyləri sayəsində xoşbəxt ola bilərlər (6,303). Aydındır ki, etika da siyasətdən və hüquqdan ayrılıqda xoşbəxtlik, borc və azadlıq konsepsiyasını hazırlaya bilməz. Burada əlaqəli fəaliyyət özünü göstərir (3, 6).

Əxlaqi şüurun elementləri kimi qiymətləndirmə istiqamətləri bir sıra funksiyalar yerinə yetirirlər. Tədqiqatçı E.V.Sokolov tərəfindən qiymətləndirmə istiqamətlərinin aşağıdakı ən mühüm funksiyaları irəli sürülür: a) fərdin özünütəsdiqinə və özünü ifadəsinə kömək edən ekspressivlik; b) insan əxz et-

diyi dəyərləri digərlərinə ötürməklə tanınmağa, uğurlar qazanmağa çalışır. Şəxsiyyətin, cəmiyyətin malik olduğu üsullar və dəyərlər vasitəsilə özünün əsas tələbatını ödəmək qabiliyyəti ilə ifadə olunan adaptivlik; c) şəxsiyyətin müdafiəsi – yalnız şəxsiyyətin bütün sisteminin əsaslı surətdə yenidən qurulmasını tələb etməyən informasiyaları bir növ süzgəcdən keçirən qiymətləndirmə istiqaməti; ç) şəxsiyyətin daxili bütövlüyünün qorunub saxlanılması üçün obyektlərin və informasiyaların axtarışına yönəldilmiş idraki, dərketmə prosesi; d) psixi proseslərin harmonizasiyasının, onların zamana və fəaliyyət şərtlərinə uyğunlaşdırılmasının, daxili psixoloji həyatın əlaqələndirilməsi **(**14**,** 174.)

Hərəkət, əməl üç komponenti özündə birləşdirir. Bunlardan birincisi motivdir. Motivlərin öyrənilməsinin böyük əhəmiyyəti vardır. Bu, mahiyyət etibarilə şəxsiyyətin fəaliyyətini öyrənmək deməkdir. İnsan fəaliyyətinin spesifik xüsusiyyəti ondan ibarətdir ki, o, həmişə məqsədyönlüdür.

Motiv (latınca movere – hərəkətə gətirmək, itələmək deməkdir) dedikdə tələbatların təmin olunması ilə əlaqədar olaraq insanı fəaliyyətə təhrik edən amillər nəzərdə tutulur. Motiv insanı fəaliyyətə təhrik edir və onun fəaliyyətinin istiqamətini müəyyənləşdirir. Bu iki cəhət bir-birilə vəhdət təşkil edir və motivin əsas funksiyaları kimi meydana çıxır.

Motivlər bir-birindən onlarda təzahür edən tələbatların növünə, onların kəsb etdiyi formalara, genişliyinə və ya məhdudluğuna, onların fəallaşdığı fəaliyyətin konkret məzmununa görə fərqləndirilir. Fəaliyyətin mürəkkəb növləri bir qayda olaraq bir motivə deyil, eyni vaxtda bir neçə təsir göstərən və qarşılıqlı təsirdə olan motivə cavab verir ki, bunlar da insanın hərəkət və əməllərinin şaxələnməmiş motivləşmə sistemini təşkil edir.

Motivlər hər bir fəaliyyət sahəsində özünəməxsus xüsusiyyətlərlə təzahür edirlər. Bu cəhəti nəzərə alsaq, biz onları fəaliyyətin növlərinə görə: oyun, təlim və əmək motivləri kimi xarakterizə edə bilərik.

İkinci komponent nəticədir, yəni müəyyən mənaya malik hərəkətin maddi və mənəvi nəticələridir. Üçüncü komponent isə həm hərəkətin özünün, həm də onun nəticəsinin ətrafdakılar tərəfindən qiymətləndirilməsidir. Hərəkətə qiymət onun sosial əhəmiyyətinə, yəni adamlar, kollektivlər, cəmiyyət və s. üçün onun əhəmiyyətinə görə verilir. Deməli, insani hərəkət bütün fəaliyyətlər deyil, amma subyektiv motivasiya edilmiş fəaliyyətdir.

Əxlaqi şüurda və cəmiyyətin mənəvi həyatında baş verən dəyişikliklər bəzən müxtəlif ziddiyyətlərlə müşahidə olunur. Sözsüz ki, bu ziddiyyətləri doğuran səbəblər içərisində əxlaqi şüur və davranışlar sistemində mövcud olan stereotiplərin, vərdişlərin yeni ictimai münasibətlərin xarakterindən doğan yeniliklərlə qarşılaşması, cəmiyyətin mənəvi təşkilinin çoxvariantlığı, sosial qrupların maraq və tələbatlarının müxtəlifliyi mühüm yer tuturdu. Digər tərəfdən ictimai həyatın bütün sahələrini əhatə edən bu dəyişikliklərin cəmiyyətin sosial strukturu kontekstində insan faktoruna təsir göstərməsi heç də təsadüfi deyildi. Çünki cəmiyyətdəki yeniləşmələr zamanı insanın bu proseslə-

rin mərkəzi faktoru kimi çıxış etməsi onun yaradıcılıq imkanlarını, mənəvi dünyasını və həyat tərzini müəyyənləşdirən mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı olması ilə bağlıdır.

Qeyd etmək lazımdır ki, əxlaqi şüur çoxölçülü və çoxstrukturlu sistemdən ibarətdir. Əxlaqi şüurun strukturunda iki dərəcəni ayırmaq olar: adi (gündəlik) və nəzəri. Bunlar qanunsuz, yanlış olaraq bir-birinə qarşı qoyulur. Onların arasındakı sərhəd mütəhərrikdir. Belə ki, ayrı-ayrı struktur elementlər (normalar, qiymətləndirmələr, anlayışlar) hər iki səviyyədə fəaliyyət göstərə bilərlər. Adi əxlaqi şüurun daha sabit, davamlı struktur elementləri adət və ənənələr, nəzəri elementləri isə – ideallardır. Qiymətləndirmə və qiymətləndirmə istiqamətləri bütün elementləri vahid halda birləşdirən inteqrativ başlanğıcdır.

Bütün bunlar isə son nəticədə öz əksini kollektivçilik, vətənpərvərlik və s. əxlaqi prinsiplər, eyni zamanda xeyirxahlıq, azadlıq, həyatın mənası, xoşbəxtlik və s. kimi ali əxlaqi dəyərlərin məzmunun müəyyənləşməsində tapırdı.

İnsanların həyatında adi əxlaqi şüurun əhəmiyyəti belə bir amili də təsdiq edir ki, bütün tarix boyu insanların böyük əksəriyyəti mənəvi həyatda adi şüur səviyyəsi ilə kifayətlənmişlər. Bu barədə A.Labriola olduqca dəqiq və obrazlı surətdə demişdi ki, «Bütün bəşər nəsli özünün inkişafı boyunca Platonun və ya Ouenin, Pestalotsinin və ya Herbartın məktəbinə getmək üçün heç vaxt nə vaxtları, nə də ki, imkanları olmuşdur. O necə lazımdır, o cür də hərəkət etmişdir» (10, 134).

Əxlaqi şüur həmçinin özünün fərqli cəhətlərinə də malikdir. Onlardan biri mənəvi halların dərinliyində əks olunmaqdan ibarətdir. Adi, gündəlik səviyyədə insanlar əsasən empirik qəbul edilmiş məlumatlardan istifadə edirlər və ictimai həyatın bu və ya digər hadisələrinin dərinliyinə və mahiyyətinə varmağa qabil olmurlar.

Hazırda əxlaqi şüurun strukturlarına münasibətdə vahid fikir yoxdur. Əvvəla, bu məsələ üzrə mövcud olan işlərdə yalnız onun ayrı-ayrı elementləri öyrənilir. İkincisi, bu elementlərin əxlaqi şüurun adi və nəzəri səviyyələrinə aid edilməsində elmi ciddilik yoxdur. Üçüncüsü, bəzən əxlaqi şüurun strukturunda ayrı-ayrı elementlər öz əksini tapır.

Bütün bunlar bütövlükdə həm əxlaqi şüur, həm də onun strukturu haqqında kifayət dərəcədə tam təsəvvür vermir. Bu məsələləri tədqiq edən tədqiqatçı rus müəllifi A.İ.Titarenko olduqca dəqiq qeyd etmişdi ki, «Əxlaqi şüurun strukturu – bu təkcə dərəcələr sistemi deyildir, amma bu, hər şeyin qarşılıqlı əlaqədə olduğu və hər bir elementin yalnız digər elementlərlə xüsusi əlaqəsində məna kəsb etdiyi bir vəhdətdir (15, 277).

Əxlaqi şüurun gündəlik səviyyəsi adət, ənənə, norma və qiymətləndirmələr kimi struktur komponentlərlə təmsil oluna bilər. Adət – adi əxlaqi şüurun sabit elementidir. Ənənə isə adi əxlaqi şüurun tarixən bərqərar olmuş möhkəm və uzunmüddətli elementidir, o, ictimai həyatı onun bütün sahələrində fəal əks etdirir, insanın davranışını onun fəaliyyətinin emosional tərəfləri ilə

sıx bağlı olan adamlar arasında əxlaqi münasibətlərin inkişafına və möhkəmləndirilməsinə yönəldir.

Əxlaqi norma əxlaqi şüurun struktur elementidir, adamların davranışlarının mümkün olan və məcburi variantlarının özünəməxsus ölçüsüdür. Bunun əsasında fərdlərin xeyir və şər mövqelərindən fəaliyyət və münasibətlərinin nizamlanması həyata keçirilir. Əxlaqi qiymətləndirmə əxlaqi şüurun struktur elementidir. Onun köməyi ilə insanın davranışının əxlaqi normalara uyğun olub-olmaması müəyyən edilir.

Bütün yuxarıda qeyd olunan struktur elementlər bir-birilə sıx əlaqədardır. Belə ki, onların köməyi ilə adamların maraqlarının uyğunlaşdırılması, ünsiyyət prosesinin təşkili, ünsiyyətdə subyektlərin qarşılıqlı fəaliyyətinin qorunub saxlanılması mümkün olur.

Nəzəri-əxlaqi şüur üçün daha yüksək səviyyə xasdır. Tədqiqatçı Q.Akmametov bunu «ideal haqqında, həyat barəsində zəruri sistem» kimi müəyyənləşdirir (5,74). Bu cür təyinat tam deyildir. Belə ki, müəllif bu şərhdə nəzəri əxlaqi şüurun struktur tərkibini göstərərək, orada baza xarakterli, dəyər və qiymətləndirmə istiqamətləri komponentlərini ayırmamışdır. Bunlar əxlaqi şüurun digər elementlərini tam halında, onun mahiyyətini ifadə edən, əxlaqi şüurun bütün strukturlarının vəhdətini təmin edən möhkəm bir əsas olardı.

Tədqiqatçılardan A.Q.Zdravomıslov və V.A.Yadov qiymətləndirmə istiqamətlərinin birləşdirici rolunu qeyd edirlər (8, 189). Tədqiqatçı A.İ.Titarenko dəyərləri və qiymətləndirmə meyllərini əxlaqi şüurun mərkəzi elementi kimi ayırır (15,291).

Əxlaqi şüurun baza elementləri kimi, dəyərlər və dəyərləndirmə meyllərinin qanunauyğun ayrılması onunla izah olunur ki, əvvəla, onların vasitəsilə bu və ya digər məqsədlərə yetişmək üçün adamların şüurunun ümumi qiymətləndirmə-imperativ meyli ifadə olunur.

Tarixdə elə insanlar olmuşdur ki, onlar özlərinin bütün düşüncəsini, ümidlərini, hisslərini hər hansı bir yüksək məqsədlərə həsr etmişdilər. Məsələn öz vətənlərini yadelli zülmündən xilas etməyə (Babək, Cavanşir, Dimitri Donskoy, Kuzma Minin, Haribaldi və b.), bəziləri isə xəstələrin əzab və əziyyətlərinin yüngülləşdirilməsinə (R.Kox, A.Şveytser və b.), gənc nəslin tərbiyəsinə (Y.Korçak, V.Suxomlinskiy və b.) həsr etmişlər. Bu adamların bütün həyatının əsas məqsədi, qayəsi aydın surətdə əxlaqi dəyərlərin göstəricisidir və onların mənəvi dünyasına nüfuz etmişlər. Bu məqsədlərə ali, bu şəxsiyyətlərin iradə və hisslərini tabe etmiş, onların dəyərləndirmə meylləri kimi baxmaq olar.

Qeyd etmək lazımdır ki, qiymətləndirmədə insan üçün lazım olan bütün əhəmiyyətli fikir və düşüncələr ifadə olunur. Ancaq onlardan ən qlobalı həyatın mənasıdır. Onun mahiyyəti şəxsiyyətin özünə və cəmiyyətə münasibətindən, cəmiyyətdə öz yerini anlamaqdan və öz fəaliyyətinin sosial əhəmiyyətini başa düşməkdən ibarətdir. Həyatın məqsədinin bu və ya digər anlamı insanın davranışının bütün xəttini müəyyən edir. «Həyatın mənası» adı altında adam-

lar tərəfindən bütün fəaliyyətin əsas məzmunu (keçmiş, indiki, gələcək) başa düşülür, bu isə, öz növbəsində, cəmiyyət həyatında onların yerini və əhəmiyyətini müəyyən edir.

Hər bir insan əmin olmalıdır ki, fərdi həyat həm onun özünə, həm onu əhatə edən insanlara və həm də bütövlükdə cəmiyyətə gərəkdir. İnsan tərəfindən həyatın mənasının düzgün başa düşülməsi ona elə bir mənəvi güc verir ki, bu da həyat yolundakı çətinlikləri dəf etməkdə ona kömək edir. İnsan üçün təkcə onun fəaliyyətinin nəticəsi deyil, həm də fəaliyyətin özü, ona olan tələbat maraq doğurur.

Həyatın mənası haqqında sual insan qarşısında birdən-birə dayanmır. Bu anlayışın formalaşması – şəxsiyyətin mənəvi yaranış prosesidir. İnkişaf və kamilləşmə səviyyəsindən asılı olaraq insan həyatın mənasını və bəşəri dəyərlər haqqında öz təsəvvürlərini yenidən gözdən keçirməli olur. Həyatın özü, insanların təcrübəsi və digər adamların nümunəsi bu cür yenidən qiymətləndirməyə təsir göstərən həlledici amillərdir.

Hazırda adamların çoxu həyatın mənasını maraqlı işdə, uşaqların tərbiyəsində, rifah halının yaxşılaşdırılmasında, ictimai münasibətlərin humanistləşdirilməsində, fəaliyyəti insanın harmonik inkişafı üçün şəraitin yaradılmasına yönəldilmiş əsl demokratik dövlətin qurulmasında görürlər. Bunu sosioloji tədqiqatlar nəticəsində əldə edilmiş məlumatlar da sübut edir (17).

Bu cəhətdən belə bir tezis irəli sürüb təsdiq etmək olar ki, istənilən insanın həyatı obyektiv məna kəsb edir, belə ki, bəzən o, insan tərəfindən dərk olunmasa da, nəyəsə doğru istiqamətlənmiş olur (9,47).

Qeyd etmək lazımdır ki, dəyərlər və qiymətləndirmə meylləri insanın davranışının və əxlaqi şüurunun əlaqələndirici həlqəsidir. Dəyərləndirmə istiqamətləri əxlaqi şüurun elə elementləridir ki, bunlar insanın əməllərində, münasibətlərində real surətdə təkrar olunur, təzələnir və ifadə edilirlər (15,83). Onlar fərdin tələbatları və maraqları ilə, onun psixikasının emosional-iradi mexanizmləri ilə sıx bağlıdır.

Dəyərlər və dəyərləndirmə meyllərinin psixoloji aspektləri haqqında danışarkən qeyd etmək lazımdır ki, əxlaqi şüurun bu struktur elementləri motivlərin və subyektlərin fəaliyyətinin bütün növ və formalarının tərkibinə daxil olaraq onun yönümünü müəyyən edir.

Dəyərləndirmə meyllərinin əxlaqi şüurun strukturuna daxil edilməsi davranışın motivləşməsinin ən ümumi sosial determinantlarını başa düşməyə, anlamağa imkan verir. Onun köklərini isə cəmiyyətin sosial-iqtisadi təbiətində və şəxsiyyətin formalaşdığı, insanın gündəlik həyat fəaliyyətinin cərəyan etdiyi mühitdə axtarmaq lazımdır (18,32). İnsan öz mühitinin dəyərlərini mənimsəyərək və onları dəyərləndirmə meyllərinə, öz davranışının motivləşdirmə qüvvəsinə çevirərək ictimai fəaliyyətin aktiv subyektinə çevrilir.

Beləliklə, dəyərlər və qiymətləndirmə meylləri əxlaqi şüurun baza elementləri kimi təmsil oluna bilər. Onlar təkcə nəzəri əxlaqi şüurun deyil, həm

də gündəlik əxlaqi şüurun elementlərini bir-birilə əlaqələndirir, onları bir araya gətirir.

Əxlaqi şüurun, onun motivlərlə və tələbatlarla sıx bağlı olan düşüncələr sisteminin, dəyərləndirmə və dəyərləndirmə meyllərinin məqsədyönlülüyünün ifadə edilməsi insanın fəaliyyətində, davranışında və digər adamlarla münasibətlərində şüurunun təzahürünə kömək edir.

Yuxarıda göstərilənlərlə yanaşı, əxlaqi münasibətlərin ümumbəşəriliyinin, onların həm milli adət-ənənələrlə bağlılığının, həm də müasir dövrün tələblərindən doğan yeniliklərə açıqlığının təmin edilməsində, daha geniş mənada götürsək, bütövlükdə əxlaqi şüurun formalaşmasında ailə, təhsil, ədəbiyyat və incəsənət, kütləvi informasiya vasitələri və s. qarşısında mühüm vəzifələr dayanır. Hamıya məlumdur ki, ailədaxili tərbiyə əxlaqi şüurun formalaşmasına təsir göstərən amillərdən biridir. Əxlaqi keyfiyyətlər insanda bütün həyatı boyu formalaşır və inkişaf edir. Lakin əsas əxlaqi norma və keyfiyyətlərin bünövrəsi insanın uşaqlıq, yeniyetməlik və gənclik yaşında qoyulur. Uşağın ilkin yaş dövrləri əsasən ailənin təsiri altında keçir. Uşaqlar valideynlərinin davranışlarından əxlaqi nümunələr götürür, onların əxlaqi norma və ali əxlaqi dəyərlərlə bağlı fikirlərini mənimsəyirlər, identifikasiya yolu ilə özünü valideynlərinə oxşatmağa çalışırlar. Onlar müəyyən yaşa çatdıqdan sonra əsas tərbiyəçi funksiyasını məktəb yerinə yetirir. Lakin ailədə uşağa məktəbəqədərki dövrdə hansı əxlaqi keyfiyyətlərin aşılanmasının böyük əhəmiyyəti vardır. Bəzi görkəmli pedaqoqların qeyd etdiyi kimi, uşağın evdə aldığı tərbiyə ilə məktəbdə aldığı tərbiyənin üst-üstə düşməsi müsbət haldır. Məktəbli müəlliminə və sinif yoldaşlarına o halda inanır ki, məktəbdəki əxlaqi tərbiyə ilə evdə aldığı tərbiyə üst-üstə düşsün. Əgər ailədə yüksək əxlaqi dəyərlər qorunursa, uşaqların əxlaqi şüuru və mənəvi dünyası düzgün istiqamətdə formalaşır.

Əxlaqi dəyərlərin struktur elementləri müəyyən iyerarxiya təşkil edir. Bu onunla izah olunur ki, insanların öz əxlaqi inkişafının zirvəsinə tarixi və ontoloji yüksəlişi tədricən baş verir: individin cəmiyyətin əxlaq normalarına uyğunlaşmasından, onun əsasında dəyərləndirmə mülahizələrinin formalaşması, sonra ən ümumiləşdirilmiş dünyagörüşü anlayışı kimi əxlaqi idealın işlənib hazırlanmasınadək daha mürəkkəb məna törəmələri (əxlaqi anlayışlar, prinsiplər). Bu dünyagörüşü verilmiş mərhələdə onun inkişafında və bir şəxsiyyətdə təmsil olunan əxlaqın işləyib hazırladığı bütün yaxşı nə varsa hamısını özünə götürür.

Buna görə qeyd etmək lazımdır ki, ayrılmış struktur elementlər mütəhərrikdir, onlar inkişaf edərək və ya tənəzzülə uğrayaraq sistemdə öz vəziyyətini dəyişə bilər. Məsələn, feodalizm mərhələsinin əxlaqi şüurunda geniş yayılmış zümrə, təbəqə şərəfi prinsipi tədricən öz əhəmiyyətini itirərək xüsusi əxlaqi normaya çevrilir.

Əxlaq normalarının qiymətləndirmə xarakteri artıq onların şərhində aydın izlənilir. Əxlaqi normalar ictimai şüurda təsdiq olunmuş başlıca əxlaqi dəyərlərin davamlı yerləşməsidir. Tədqiqatçı V.A.Vasilenkonun fikrincə, əxla-

qi normalarda əməl və münasibətlərin müəyyən növünün dəyərləndirmə strukturu modelləşir (7,146).

Əxlaq normalarının dəyərləndirmə əsası ondan ibarətdir ki, onlarda düzgün olan və düzgün olmayanlar, xeyir və şər haqqında informasiyalar vardır. İnsan bunları rəhbər tutaraq əxlaqi davranışın optimal variantını seçir. Müəyyən ölçüyə, fərdi davranış çərçivəsinə salınan normalar insani münasibətlərin nizamlanmasına kömək edir. Dəyərləndirmə məzmununun xüsusi dərinliyi ümumbəşəri əxlaqi normalarla xarakterizə olunur: öldürmə, oğurlama, yalan danışma, qibtə etmə, zəiflərə, müdafiəsiz şəxslərə və s. kömək et.

Əxlaqi dəyərlərin tərkib hissəsi olan əxlaqi normalar onunla fərqlənirlər ki, onların əsasını təşkil edən zərurilik, şəxsiyyətlər tərəfindən onların könüllü etirafının ilkin şərtlərini, davranışın zəruri xəttinin seçim azadlığı imkanını özündə əks etdirir.

Dəyərlər iyerarxiyasında növbəti element əxlaqi qiymətləndirmədir. Əxlaqi qiymətləndirmə obyektiv və subyektiv xarakter kəsb edə bilər. Qiymətləndirmənin obyektiv tərəfi ictimai praktika və abstrakt anlayışlarla, subyektiv tərəfi isə ən müxtəlif təbiətə malik olan qiymətləndirmə subyektinin maraqları və tələbatları ilə şərtlənir.

Qiymətləndirmə prosesi informasiyanın iki növünün əlaqələndirilməsindən ibarətdir: qiymətləndirmə predmeti haqqında bilgi və qiymətləndirmə subyekti: onun maraqları və tələbatları haqqında bilgi. Bir tərəfdən subyektin özü dolğunluğun çox və ya az dərəcəsi ilə əks oluna bilər, digər tərəfdən maraqlar və tələbatlar həmçinin qeyri-bərabər, subyektiv, qabaqcadan tədqiq edilmədən əks oluna bilər.

## ƏDƏBİYYAT


**I.** ***Azərbaycan dilində***

1. Mehdiyev R.Ə. Fəlsəfə. Dərs vəsaiti. Bakı: Şərq-Qərb, 2010, 360 s.
2. Məmmədzadə İ.R., Məmmədzadə R.H. Xeyir və şər arasında. Bakı: Təbib, 1993, 51 s.
3. Məmmədzadə İ. Siyasi etika. Bakı: İnam, 1997, 18 s.
4. Sadıqov Q. Etika. Bakı: Maarif, 1971, 183 c.

**II.** ***Rus dilində***

5. Акмамметов Г.Г. Нравственная культура и личность. Алма-Ата: Госиздат, 1988, 273 с.
6. Аристотель Соч. в 4 т. т.4, М.: Мысль, 826 с.
7. Василенко В.А. Мораль и общественная практика. М.: МГУ, 1983, 176с.
8. Здравомыслов А.Г., Ядов В.А. Отношение к труду и ценностные ориентации личности // Социология в СССР. Т.2, М.: Мысль, 1965, 511 с.
9. Леонтьев Д.А. Очерк психологии личности. М.: Мысль, 1997, 47 с.
10. Ларушфуко Ф., Паскаль Б., Лабьюйер Ж. Суждения и афоризмы. М.: Наука, 1990, 164 с.
11. Материалисты Древней Греции. М.: Госполиздат, 1955, 239 с.
12. Нешев К. Этика счастья. М.: Знание, 1982, 64 с.
13. Руткевич М.Н. Диалектика и социология. М.: Мысль, 1980, 356 с.
14. Соколов Э. В. Культура и личность. Л.: Наука, 1972, 228 с.
15. Титаренко А.И. Структуры нравственного сознания. М.: Мысль, 1974, 516 с
16. Философский словарь / Под ред. И.Т.Фролова), М.: Политиздат, 1986, 588 с.
17. Шабанова М. Свобода в условиях реформ // Свободная мысль. 1996, № 4, 62-72 с.

18. Ядов В.А. Регуляция и саморегуляция социального поведения личности: постановка проблемы // Саморегуляция и прогнозирование социального поведения личности. Л.: Наука, 264 с.

## СУЩНОСТЬ И СТРУКТУРА МОРАЛЬНОГО СОЗНАНИЯ

**А.М.МАМЕДОВА**

**РЕЗЮМЕ**

В статье речь идет о сущности морали, в целом. Были изложены основные особенности моральных принципов и норм. Анализируется исторические типы морали. А также было отмечено значение морального сознания. Как структурные элементы морального сознания, отмечены моральные ценности. Анализируются как базовые элементы морального сознания, ценности и ценностные ориентации.

**Ключевые слова:** моральное сознание, сущность, мотив, взаимные связи, общение

## THE ESSENCE OF THE MORAL CONSCIOUSNESS AND ITS STRUCTURE

**A.M.MAMMADOVA**

**SUMMARY**

The article studies the essence of the moral principles and norms. The historical types of moral attitudes are analyzed. The importance of the moral consciousness is marked. Moral values as structural elements of the moral consciousness are interpreted.

**Key words:** moral consciousness, essence, motive, mutual connection, intercourse